Ədəbiyyat QƏZETİ

5 dekabr / 2020

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarına

Bu gün Laçının azad olunmasıyla ölkəmizin ərazi bütövlüyü tam şəkildə təmin olunarkən Sizi, hörmətli prezidentimizi, müzəffər ordumuzun cəsur Ali Baş komandanını bu tarixi qələbəmiz münasibətilə ürəkdən təbrik edirik.

Deyirlər, Qələbənin çoxlu atası olur, məğlubiyyət - yetimdir. Bizim otuz il bundan qabaqkı məğlubiyyətimizin "ataları" çox idi, amma bugünkü şanlı zəfərimizin atası birdir - İlham Heydər oğlu Əliyev.

Xalqımızın qibtə ediləcək həmrəyliyinə, birliyinə, qəhrəman əsgərlərimizin, zabitlərimizin hünərinə və peşəkarlığına, şəhidlərimizin fədakarlığına güvənərək Siz silahlı qüvvələrimizin müasir tələblərə uyğun qurmanızla, yaxşı düşünülmüş, ölçülüb-biçilmiş, tədbirli və təmkinli siyasi addımlarınızla bu böyük qələbəmizi təmin etdiniz. Xalqımızın otuz illik nisgilinə, həsrətinə, ağrısına son qoydunuz. Daha heç kəsin qarşısında gözükölgəli, başıaşağı görünə bilmərik. Hər sahədə halal zəhmətimizlə, gəlib keçən müxtəlif nəsillərin bu günə sarsılmaz inamıyla, xoş gələcəyə böyük ümidlərlə, türk qardaşlığı yolunda neçə-neçə qurbanlar bahasına yüksəldiyimiz bu zirvədə üçrəngli bayrağımız əbədi dalğalanacaq. Uca Tanrının yardımıyla müqəddəs vətənimiz yağı tapdağından xilas edildi. Həm döyüş meydanında, həm siyasət müstəvisində misli görünməmiş qələbə qazanıldı. İndi dünyanı koronavirus kimi bürümüş erməni yalanlarını da alt-üst etməliyik. Bu böyük vəzifənin öhdəsindən gəlmək üçün yazıçılarımız, qələm sahiblərimiz də səylərini əsirgəməyəcəklər.

Hörmətli Prezident! Bir daha Sizi təbrik edir və xalqımıza, hamımıza yaşatdığınız qürur hissinə görə təşəkkür edirik.

*Azərbaycan Yazıçılar Birliyi*
*1 dekabr 2020*